## Vaqif VƏHMƏNLİ

# Azərbaycanın ən humanist yazıçısı Elçin müəllimə

*Tanrım, niyə məni adam yaratdın,*
*Noolardı çəməndə çiçək olaydım?*
*Bir əlvan kəpənək olsaydı adım,*
*ya da bir çiçəyə dibçək olsaydım...*

*ağactək ucalıb yol qırağında,*
*gələnə, gedənə əl eləsəydim...*
*Əsib yellər kimi, axşam çağında*
*güllər arasından yol eləsəydim...*

*dərə yaratsaydın yamacı islaq -*
*qoynuma yağışlar dolardı, Tanrım!*
*Məni bir axar su, çağlayan bulaq,*
*bulud yaratsaydın... nolardı, Tanrım?*

*Adamın üst-başı qan olur, Tanrım,*
*Qəssab qarmağında şaqqadı adam.*
*İstəyi var-dövlət, şan olur, Tanrım*
*Şahların belində toqqadı adam.*

*Tülküdü, ceyrandı, çaqqaldı adam,*
*Tanrım, adam olmaq ayrı büsatdı.*
*Küləkdi, sazandı, naqqadı adam*
*Tanrım, adam adı adıma yaddı.*

*Adına ad çatmaz, böyükdü adın,*
*Kafər hikmətini duydumu sənin?*
*Tanrım, niyə məni adam yaratdın,*
*Qüdrətinin gücü buydumu sənin?*

*Kef çəkir zürafə, dəvə, İlahi,*
*Nə var ki, onlara pənah olmağa?*
*Məni yaratmağa nə var, İlahi,*
*Dəyərmi bununçün Allah olmağa?*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 20 may.- S. 30.